*Ağamirzəyev Orxan. Müasir cəmiyyətdə kitabxana - informasiya fəaliyyətinin menecmenti //Elmi əsərlər,2022, 2(15),iyul-dekabr,s.43-48.*

## Kitabxanaşünaslıq. Kitabşünaslıq. Biblioqrafiyaşünaslıq.

UOT: 004

**Orxan Ağamirzəyev,**
*tarix üzrə fəlsəfə doktoru*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.26.*
e-mail:orkhan_767@mail.ru

# MÜASİR CƏMİYYƏTDƏ KİTABXANA - İNFORMASİYA FƏALİYYƏTİNİN MENECMENTİ

*Məqalədə müasir cəmiyyətdə kitabxana-informasiya sisteminin fəaliyyətinin elmi cəhətdən əsaslandırılmasında və dünya standartlarına uyğun təşkilində menecmentin rolundan bəhs edilir. Burada dünyanın bütün iqtisadi sferalarında informasiya texnologiyalarının tətbiqi, kütləvi elektron bazaların müxtəlif tələblərə uyğun təkliflər proqramları vasitəsi ilə inkişafı məsələsinə də diqqət yetirilir. Həmçinin müasir dövrdə həyata keçirilən kitabxanaçılıq fəaliyyətində menecmentə olan tələbat, onun internet onlayn kitabxana işinə tətbiqi, elektron məlumat bazalaının təhlükəsizliyi kimi məsələlərə də toxunulmuş, müəyyən ümumiləşdirmələr aparılmışdır.*

**Açar sözlər**: *kitabxana, informasiya, menecment, cəmiyyət, texnologiya, elmi-texniki tərəqqi, təhlükəsizlik, internet.*

Bəşəriyyət tarixinə nəzər salarkən hər bir əsrin özünəməxsus inkişaf prosesi böyük elmi və mədəni əhəmiyyətə malik hadisələrlə xarakterizə olunur. Məsələn, XX əsr tarixə elmi-texniki tərəqqi, atom əsri kimi daxil oldusa, XXI əsr isə "informasiya əsri" hesab olunur. Bunun da əsas səbəbi informasiyanın cəmiyyətinin əsas aparıcı qüvvələrdən birinə çevrilməsi, sənaye cəmiyyətindən informasiya cəmiyyətinə sürətlə keçid–ilə əlaqədardır. Alimlər belə bir fikri formalaşdırarkən cəmiyyətdə gedən proseslərin dərin tədqiqinə və onun qanunauyğunluqlarına əsaslanmışlar. İnformasiya cəmiyyəti bəşəriyyətin inkişafında yeni dövrün - informasiya əsrinin başlanğıcı, müasir dövr sivilizasiyanın yeni inkişaf mərhələsinin əsas əlamətlərindən biridir[1, s.227].

İnformasiya kommunikasiyalarının sürətli inkişafı, həmçinin müasir tələblərə cavab verən – online kitabxana sistemlərinin təşkilində tətbiqi son dövrünn ən aktual mövzularından biridir, desək yanılmarıq.

Hazırda ölkəmizdə hər bir informasiyayönlü müəssisələr öz sosial xidmətlərini müasir dövrün tələblərinə uyğun yenidən yaratdığı kimi, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun kitabxanasında tətbiq edilən innovativ, funksioanal elektron xidmətlər də yalnız akademiya əməkdaşlarına deyil, bütün cəmiyyətin üçün istifadəsinin təşkilini təmin edir. Bunun üçün ilk növbədə institutun kitabxanası beynəlxalq elektron kitabxana təcrübələrinə nəzər salır və işlərində bu yenilikləri tətbiq edirlər. Belə ki, beynəxalq “elektron kitabxana”lar öz təcrübi fəaliyyətlərində onu əhəmiyyətli bir sahə kimi təsdiq ediblər. Buna görə də son onilliklərdə onlar öz sferalarında daha da populyarlaşaraq reytinqli statuslara yüksəlmişlər. Kitabxanaların əsas funksiyası, və vəzifələrindən biri iş proseslərini müasir tələblərə uyğun yerinə yetirən, avtomatlaşdırılmış proqram təminatının təşkili və onları idarə edə biləcək işçi – kadr heyətinin formalaşdırmasıdır. Bu mənada müasir dövrdə cəmiyyətdə baş verən bütün sosial proseslər elmi qanunlar əsasında

idarə olunmalıdır. Əks təqdirdə bütün sahələrdə heç bir irəliləiş, tərəqqi mümkün deyildir[4, s.5].

"Kitabxana menecementi" kitabxana işinin təşkili və idarə olunmasının müasir və mütərəqqi təzahürü kimi meydana çıxır. Kitabxana menecmentinin ən başlıca məqsəd və vəzifəsi kitabxanalarda mühafizə edilən informasiya daşıyıcılarından, kitabxanaların imkanlarına əsaslanmaqla bəşəriyyətin informasiya potensialından səmərəli istifadə olunmasını təmin etməkdən ibarətdir. [2, s.8].

Menecement həm də idarəçilik fəaliyyəti sistemidir. Həmin fəaliyyət sistemi özündə idarəetmə prosesini, fəaliyyətin təşkilini, icraçılar arasında funksiyaların və məsuliyyətin bölüşdürülməsini, resursların səmərəli seçimi və istifadəsini, çoxvariantlı qərarların qəbul edilməsini, iş üslublarının müəyyən edilməsini və bütün bunlar üçün xüsusi idarəetmə orqanlarının mövcudluğunu nəzərdə tutur [3, s.5].

**Kitabxanaların əsasını təşkil edən informasıya funksiyası** isə informasiya menecmentinin fəaliyyət sahələrindən biridir. Onun əsas hədəfləri cəmiyyəti aktual informasiya ilə maarifləndirmək, elm-bilik sahəsindəki inkişaf proseslərini daimi olaraq nəzarətdə saxlamaq, mühüm sayılan istiqamətləri müəyyənləşdirməkdir. Həmçinin bəşəriyyətə təqdim edilmiş son texnoloji yenilikləri öyrənmək, münasib proseslərdə onlardan istifadəsini təşkil edərək insanların tələbatına uyğun informasiya ilə təmin etmək, novator prinsipli tədqiqatları davamlı şəkildə ön plana çəkə bilmək informasiya idarəçiliyindəki əsas prinsiplərdəndir.

İnformasiya menecmentinin cəmiyyətdəki inkişafı üçün bir çox layihələr mərhələli şəkildə həyata keçirilir.Onların tarixi və hazırkı fəaliyyəti, məsələn, elmi-praktik tərəfdən təhlillər aparılaraq öyrənilir. Bu isə elektron informasiya bazalarını tələb və təkliflər üzərindən təmin edilməsi üçün virtual aləmin geniş oxucu kütlələrində maraq oyada bilməsi nəticəsində aparılır. Son illərə dair nəzəri tədqiqatların və təcrübi fəaliyyətin təhlili göstərir ki, kitabxanaların öz aralarında qarşılıqlı şəkildə fəaliyyətləri daha çox mənbə və mövzuların artırılmasında böyük uğur qazana bilmişdir. Həmçinin cəmiyyətin fərqli ixtisas sahələrində olan istər fərdi, istərsədə təşkilatlara bağlı kitabxana siyasətinin elektron xidmət təklifləri, məlumat bazalarının istifadəçi kütlələrinə çıxışı maddi-texniki bazaların da inkişafına xeyli təkan verir. Artıq dünyanın demək olar ki, bütün sferalarında informasiya texnologiyalarının tətbiqi kütləvi elektron bazarların müxtəlif tələblərə uyğun təklif proqramları vasitəsi ilə inkişafını təmin edir.

Hazırda dünyanın ən qabaqcıl elektron kitabxanaları sayılan –

- Universal Digital Library
- Project Gutenberg
- Bartleby
- Ibiblio
- Google Books
- Internet Archive: The largest digital library for downloading e-books and audiobooks for free
- Open Library: More than one million e-books özlərinin inkişaf tendensiyaları ilə liderdir.

Görkəmli kitabxanaşünas alim, professor Abuzər Xələfovun və dünya alimlərinin də vurğuladığı kimi XXI əsrin "informasiya əsri" kimi qeyd edilməsi zamanla öz təsdiqini tapmaqdadır. Lakin "informasıya əsri" deyilən çağda mühüm "tərəqqi" etdirilmiş təhlükəli məqamlar da meydana çıxmışdır. İnformasiya riski-iqtisadiyyat subyektinin hüquqi və fiziki şəxsin aktivlərinin itirilməsi nəticəsində informasiyanın itkisi, xarab olması, təhrifi və açıqlanması təhlükəsinin mümkünlüyüdür[4].

İnformasiya cəmiyyətinin inkşafı, onların müxtəlif təhlükəli təsirlərdən qorunaraq idarə olunması və elektron məlumat bazalarının təhlükəsizliyinin təmini də bu faktorlardandır.

Belə ki, dünya təcrübəsində dəfələrlə böyük müəssisələrin və təşkilatların kiber hücumlara məruz qalması, onilliklərin baza məlumatların məhv etməsi problemləri ilə üz-üzə qoymuşdur. Bu zaman informasiya cinayətkarlığına qarşı ekspertlərin nəzarəti vacibdir. Kiber cinayətkarlıqdan qorunma yollarından əsası daim hesablamaların düzgün aparılması, daxili serverlerin xarici serverlərlə əlaqəli sərhədlərinin düzgün tədbirli olması gərəkliyidir. Ən vacibi isə istənilən müəssisə və təşkilatda hər bir yenilənən proseslərdə informasiya təminatı zamanı nəzarəti, məhz informasiya texnologiya təhlükəsizliyi üzrə ekspertlərin məsləhəti ilə həyata keçirilməsidir.

***İnternet xidmətlərinin kitabxana işinə tətbiqi.***

İnformasiyalaşdırılmış cəmiyyət şəraitində bəşəriyyətin fantastik əsəri olan internetin kitabxana işinə tətbiqi, kitabxanaların internet şəbəkəsinə qoşulması, onların həyatında yeni eranın başlanğıcı oldu. Belə ki, internet vasitəsilə bütün coğrafi sərhədlər yox olur, ölkələrin qanunları qismən aradan qalxır, geosiyasi sərhədlər müəyyən qədər əhəmiyyətini itirir. Bütün cəmiyyət üzvlərinə, insanlara xidmət edən vahid informasiya platforması meydana çıxır. Bu məkan hamı üçün açıqdır və ondan istifadə etməkdə hamı bərabərdir.

Texnologiya və insan faktorunun vəhdəti, informasiyanın daha dərindən öyrənilərək təhlil və tədqiqi, texnologiyalardan yararlanaraq informasiyanın cəmiyyətdə istifadəsinin təşkili və ənənəvi prosesləri əvəz edən innovativ tətbiq sahələrinin də meydana gəlməsi bütün sahələrdə mühüm irəliləyişlərə səbəb oldu. İnformasiyanın, yaxud elmin internet üzərindən cəmiyyətə ötürülməsi, bir çox müəssisələrin müntəzəm olaraq kitabxanalarla qarşılıqlı əməkdaşlığı, müxtəlif tipli bazaların yaradılması və onların mühafizəsi yollarının müəyyənləşdirilməsi də tarixin meydana gətirdiyi və öz əhəmiyyətini təsdiq etdiyi faktorlardandır. Bu isə tədqiqat instutlarına, istənilən hər hansısa bir peşə sahəsində olan mütəxəssislərə mərhələli şəkildə inkişaf proqramında həvəsləndirici maraq, stimul və təkan verici müsbət təsirini göstərir. Cəmiyyətdə həm elmi, həm də digər sahələrin informasiyalaşdırılması – informasiyalaşdırılmış cəmiyyət fikrini ortaya qoyur.

"İnformasiyalaşdırılmış cəmiyyət - yeni tipli cəmiyyətdir**.** Bu cəmiyyət özündən əvvəlki cəmiyyətlərdən öz texnologiyalarına (xüsusilə informasiya texnologiyalarına) görə fərqlənir. Bu cəmiyyət yeni qlobal-sosial inqilabın nəticəsi olub, informasiya partlayışından doğan, informasiya və kommunikasiya texnologiyalarının birləşməsi nəticəsində formalaşan yeni tipli cəmiyyətdir. Ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı yeni mərhələyə qədəm qoyub[5]. Bu cəmiyyətin yeniliyi əsasən informasiya texnologiyası, elektron texniki vasitələrlə informasiyanın toplanması, saxlanması, ötürülməsi və yeni informasiya istehsalı ilə şərtlənir. Azad cəmiyyətlərə məxsus demokratikləşmə prinsipləri, vətəndaşların informasiya almaq hüquqlarının təminatı, hər bir insan, hər bir təşkilat üçün informasiyanın ümumaçıqlığı mühüm əhəmiyyət kəsb edir. İnformasiyanın ümumaçıqlığının təmin edilməsi öz növbəsində informasiya texnologiyasının əsaslı inkişafını və onun sürətlə informasiya xidməti prosesinə tətbiq edilməsini tələb edir. İnformasiya cəmiyyətində informasiyanın ümumaçıqlığının təmin edilməsi, informasiyanın «hamı üçün» olması, informasiyanın, xüsusilə onun keyfiyyət sahəsi olan biliyin istehsalı, mühafizəsi, emalı və reallaşması üçün işçi qüvvəsinin əksər hissəsinin ciddi iş aparmasını tələb edir" [1, s.231].

**İnformasiyalaşdırılmış cəmiyyət - bilik cəmiyyətidir.** Bu cəmiyyət hər bir insanın, hər bir cəmiyyətin bilik almasını təmin edir, onlara informasiya mənbələrindən maneəsiz istifadə etmək və təcrübə qazanmaq üçün şərait yaradır.

Bu cəmiyyət müasir dünyada baş verən yenilənmə və dəyişikliklərin baza komponentlərindən biri olduğundan cəmiyyətdə biliyin daha da sistemləşdirilməsinə, biliyin bütün sahələrdə yayılmasına xidmət etməlidir.Alimlər iqtisadi inkişaf nöqteyi nəzərindən müasir cəmiyyəti üç mərhələyə ayırırlar sənaye cəmiyyəti, post sənaye cəmiyyəti, informasiya cəmiyyəti[1, s.231].

Son dövrlərin mühüm tədqiqatlardan biri də cəmiyyətdə yaranan müxtəlif yönlü yeni tətbiqlərin bir-birinə inteqrasiyası və meydana gələn yeni lahiyələrin insanlar tərəfindən səmərəli istifadəsinin təşkili məsələləridir.

Qlobal inkişaf artıq cəmiyyətin müasir elektron informasiya idarəçiliyindən səmərəli yararlana bilməsi, keyfiyyət menecmentinin müasir kitabxanalarda vacib tutulan ilkin mərhələsindən biridir. Yəni, yeni vizual elektron proqramların təmini, təhlili və tədqiqatlarda menecerlərin vasitəçiliyi ilə müxtəlif yönlü lahiyələrdə tətbiqi, keyfiyyətli nəticələrin əldə olunmasıdır.

XXI əsr informasiya cəmiyyətinin formalaşması qlobal inkişafa keçid mərhələsi ilə başlamışdır. Qlobal inkişafın hər bir keçid mərhələlərində geniş imkanların əldə edilməsi informasiya bazalarının güclü vasitəçiliyi ilə həll edilmiş və edilməkdədir. Yəni, elekron məlumatlar vasitəsilə kitabxanaların payına cəmiyyətdə istər müasir, istərsə də yaxın keçmişdə informasiya bazasının geniş imkanlarından istifadə səmərəliliyin əldə edilməsidir. Belə ki, son dövrdə bir neçə beynəxalq tədqiqatçı və elmi-analitiklərin müşahidələrinə əsasən kitabxanalardan istifadə əvvəlki dövrlərə müqayisədə nisbətən azalmışdır. Bu isə yeni mərhələdə öz fəaliyyətini cəmiyyətin müasir tələbləri səviyyəsinə qaldırmalı olduğunu müəyyən edir. Bu zaman əsas diqqət layihə menecerlərinin üzərinə düşür. Layihə menecerlərinin vizual internet üzərindən fərqli mövzularda plan-təkliflərini irəli sürməsi nümunəsini xüsusilə qeyd etmək olar. Buna misal olaraq son dövrlərin geniş istifadəçi kütləsini əhatə edən elektron kitabxanalarda audiokitabların gündəmə gəlməsini misal göstərmək olar.

Kitabxanaların tələb-təklif mövzusunda keyfiyyət menecmentinin başlıca prinsipləri isə cəmiyyətin yaş təbəqələrinin maraqlarının təhlilini həyata keçirmək və onların maraqlarına uyğun töhfə verməkdir. Müasir texnologiya vasitələri ilə innovasiya sintezini xüsusi qeyd etmək lazımdır.

Menecerlərin idarəçilik prinsiplərini saxlama qaydaları ilə yanaşı, fərqli innovativ məkanda öz yaradıcılıq imkanlarından yararlana bilmələri də əsas şərtdir. Son dövrdə əsas məsələlərdən biri insanın cəmiyyətin müxtəlif sferalarla fəaliyyəti nə dərəcədə fərqlidirsə, məhz menecerlərin də kitabxanaçılıq fəaliyyətləri bir o qədər çoxyönlüdür və bacarıqlıdır.

Nəticə etibarı ilə aparılan təhlil və təcrübələrə əsasən qeyd etmək olar ki, daha perspektivli inkişaf yollarını özündə əks etdirən menecerlər yeni texnoparkların tədqiqat proseslərindən geniş istifadə edə bilməsi ilə maraqları daima yenilik sistemindən öz töhfəsini göstərir. Xüsusən qeyd etmək lazımdır ki, bəzən tədqiqat işlərinin aparılmasında insan əməyinin bir çox sahələrində avtomatlaşdırma işinin aparılması, yüksək səviyyədə irəliləməsi və inkişafı məsələsi aktuallıq kəsb edir. Bu sahədə aparılan təhlil metodlarının istiqaməti nəticə etibarı ilə fərqli düşünülsə də, innovasiyalarla müqayisə ediləcək təsiri mühüm əhəmiyyət kəsb edir.

İstənilən praktika və tədqiqat işlərində əsas məsələ cəmiyyətə daha qısa yollarla təklif və xidmətlərin göstərə bilməsi bacarığıdır. İstənilən cəmiyyətin kiçik,orta və yaşlı təbəqəsinin maraq dairəsi müxtəlifdir. Burada insan əməyi hər hansısa bir avtomatlaşdırma, əvvəlcədən proqramlaşan vasitələrlə daha perpektivli və cəlbediciliyini saxlaması nəticəsini göstərməsi təlimləri ilə təsbit edilir.

Müasir dövrümüzdə fərqli metodlarla hər bir yeniliklərin xüsusi önəmliliyini nəzərə alsaq ən vacib olanı təlim və tədqiqatların sistemli idarəçiliyidir. Nəticə etibarı ilə aparılan tədqiqatların hər birinin prioritetliliyi - keyfiyyət menecmentinin cəmiyyətdəki rolu, tələb və tapşırıqları son texnoloji tədqiqatlarla məsafəni necə qət edə bilmə funksionallıqları ilə irəliləməsi, öz peşə fəaliyyəti və yaş təbəqəsinə uyğun sənəd-informasiya resurslarna maraq göstərə bilməsidir. İstənilən bir halda kiitabxanaçılıqda keyfiyyət menecmentinin əsas rolu cəmiyyətdə istər təşkilat istərsə də fərdi işçi əməyinin inkişafı perspektivliyinə yol açması, müasir elmi-təcrübi təhlillərinə imkanları nıyarada bilməsi vacibdir.

Müasir dövrümüzdə təhlil və təlimlərin fərqliliyi dəyişkən və yeni innovativ vizual pəncərəsi ilə mühüm strateji addımlarla insanlar tərəfindən xüsusi qarşılanması cəmiyyətin maariflənməsinə, kitabxanaların inkişafında yeni stimulların prinsiplərini əsas gətirməsidir. Müasir dünyada fərqli yanaşma prinsipliliyi ilə aparılan layihələr bu sahədə menecerlərə açıq imkanların yaradılmasını buna əyani sübut kimi göstərmək olar.

Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin son illərdə inkişafı üzrə dövlət proqramlarının təşkili müasir tələblərə cavab verən kadrların, milli mütəxəssizlərimizin yetişməsində önəmli yer tutdu. Burada tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, nəsildən-nəslə çatdırılmasında və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi bu sahədə əsaslı islahatların aparılmasını, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsini, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsini, elektron məlumat banklarının yaradılmasını, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir və bütün bunlar elm sahəsində dövlət siyasətinin əsas prioritetlərindən olaraq yeni addımlara təkan verir.

Cəmiyyətin informasiyalaşdırılması ölkənin bütün sahələrində səmərəliliyin artırılmasına, elektron sənəd mübadiləsinin, elektron kitabxana sistemlərinin tətbiqinə, xidmət işinin keyfiyyətinin yüksəldilməsinə köməklik göstərəcəkdir.

**Ədəbiyyat:**

1. Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyət və kitabxanalar.- Bakı: Azərnəşr, 2011. - 348 s. - Elektron resurs: https://ebooks.az/view/VkhuDAse.pdf
2. İsmayılov X.İ. Kitabxana menecmentinin əsasları: dərs vəsaiti. - Bakı: BUN, 2005. – 197s.
3. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. - Bakı, 2001. - 510 s.
4. https://e-qanun.az
5. http://old.xalqqazeti.com

***Орхан Агамирзаев***

## МЕНЕДЖМЕНТ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В СОВРЕМЕННОМ ОБЩЕСТВЕ

### Резюме

В статье рассматривается роль менеджмента в научном обосновании библиотечной политики в современном обществе и ее организации по мировым стандартам. Здесь уделяется внимание применению информационных технологий практически во всех сферах, развитию массовых электронных рынков посредством программ предложений по различным требованиям. Также были затронуты такие

вопросы как востребованность менеджмента в библиотечном деле в современную эпоху, применение интернета в библиотечной работе, безопасность рынка электронной информации и сделаны определенные обобщения.

***Ключевые слова:*** *библиотека, информация, управление, общество, технологии, научно-технический прогресс, безопасность, интернет.*

***Orkhan Agamirzaev***

## MANAGEMENT OF LIBRARY AND INFORMATION ACTIVITIES IN MODERN SOCIETY

### Summary

The article discusses the role of management in the scientific substantiation of library policy in modern society and its organization according to world standards. Here attention is paid to the application of information technology in all areas of the world, the development of mass electronic markets through programs of proposals for various requirements. They also touched upon such issues as the demand for management in librarianship in the modern era, the use of the Internet in library work, the security of the electronic information market, and certain generalizations were made.

***Key words:*** *library, information, management, society, technology, scientific and technological progress, security, internet.*

*Redaksiyaya daxil olma tarixi: 07.11.2022*
*Çapa qəbul olunma tarixi: 12.12.2022*

*Tarix üzrə fəlsəfə doktoru Şəfəq İslamova tərəfindən*
*çapa tövsiyə olunmuşdur*